# TANRI YOLÇULUĞU

Tarixi bədii əsərlər, xüsusilə də romanlar bütün dövrlərdə aktual olub və insanlar onlara böyük maraq göstəriblər. Homerin "İliada"sı, Firdovsinin "Şahnamə"si, Nizaminin "Xosrov və Şirin"i, "İsgəndərnamə"si, Şekspirin "Kral Lir"i, Puşkinin "Kapitan qızı", Qoqolun "Taras Bulba"sı, Bulqakovun "Ağ qvardiya"sı, Şoloxovun "Sakit Don"u, Cəfər Cabbarlının "Od gəlini", Ordubadinin "Qılınc və Qələm"i və digər saysız-hesabsız ədəbi-bədii və bədii-tarixi əsərlər oxuculara görmədikləri uzaq və ya yaxın keçmiş, dövrün ictimai-siyasi prosesləri, şəxsiyyətləri, mədəni mühiti, arxitekturası, məişəti, mənəviyyatı, sadə insanları haqqında müəyyən məlumatlar verib, onlarda konkret tarixi şərait, dövrün mənzərəsi haqqında müəyyən təsəvvür yaradıb.

Aydın məsələdir ki, fundomental elmi tarxi əsərlər məhdud oxucu kütləsi, tarixi elmi kontekstdə öyrənən peşəkarlar üçün olduğundan, sırf elmi üslubda yazılır, geniş xalq kütləri, adi oxucu bu səbəbdən onlara bir o qədər də maraq göstərmir. Tarixi şəxsiyyət oxucuya təkcə ictimai-siyasi, mədəni-ədəbi, maarifçilik və digər fəaliyyətlərindən başqa, həm də bir insan, fərd kimi maraqlıdır. Oxucular, sadə insanlar görkəmli şəxsiyyətlərin uşaqlığını, gəncliyini, sevgisini, ehtiraslarını, ailəsini, məişət qayğılarını, problemlərini, ev-eşiyini, geyimini, vərdişlərini, hətta hobbilərini özlərininki ilə müqayisə etməyə meyilli olurlar. Məşhur tarixi hadisələrdə görkəmli şəxsiyyətlərlə yanaşı, özləri kimi sadə,



"orta statistik" insanların rolunu da görmək, müharibələrin, inqilabların, işğalların, istilaların insanların gündəlik həyatına, məişətinə, xarakterlərinə, psixoloji durumuna və duyğularına necə təsir etdiyi ilə konkret örnəklər, aydın təsvirlər, mənzərələr əsasında tanış olmaq istəyirlər.

Draqan Damyanoviçin "Müqəddəs Anastasiyanın möcüzələri və peyğəmbərliyi" tarixi romanı XII əsr Serbiyası, serb dövləti, onun ictimai-siyasi, mədəni-mənəvi həyatı, qonşu dövlətlərlə münasibətləri, Avropadakı və dünyadakı yeri, xristian aləmindəki mövqeyi, serb xalqının məişəti, güzəranı, inancları, həm kübar, həm də sadə insanların yaşantıları, hiss və həyəcanları, duyğuları baxımından ciddi informasiyalar verən maraqlı və oxunaqlı bədii əsərdir.

Stefan Nemanya (1113 – 1199) böyük qardaşı Tixomiri devirdikdən sonra Paşka vilayətini Bizans imperiyasından ayıraraq, müstəqil elan edir. Sonradan Bizans imperatorlarının süzerenliyini tanısa da, Nemanya öz ölkəsinin Balkanlardakı mövqeyini möhkəmlətməyə nail olur və serblərin məskunlaşdığı Kosovo, Duklya, Travuniya, Zaxumye diyarlarını, Neretva çayı ətrafındakı torpaqları birləşdirir. O eyni zamanda Raşka daxilində mərkəzləşdirici siyasət apararaq, bidətçi boqomilçiləri təqib edir.

Nemanyanın hakimiyyət illəri serb mədəniyyətinin inkişafı ilə əlamətdardır. Onun möhtəşəm zadujbinalar (miras qoyulmuş vəsaitlə inşa və təchiz olunan məbəd) inşa etdirməsi, həm də memarlıqda Ras üslubunun təşəkkülünə zəmin yaradıb; bunun ən parlaq nümunəsi Nemanyanın 1171-ci ildə inşa etdirdiyi Curcevi-Stupovi monastırıdır. Çar Nemanyanın iştirakı və yardımı ilə bir çox digər kilsə və monastırlar da tikilib və bərpa olunub ki, onların arasında Studenisa və Hilandar monastırları da var.

1196-cı ildə çar Nemanya hakimiyyətdən ikinci oğlu Stefanın xeyrinə imtina edərək, arvadı Anastasiya ilə birlikdə rahibliyi qəbul edir və onlar ayrı-ayrı monastırlara gedirlər – Nemanya Studenisa, Anna isə Toplisa monastırına. Bu hadisə romanda geniş təsvir olunur. Bütün ömürlərini cah-calal, bolluq, rahatlıq içərisində keçirən iki yaşlı insanın qəfil belə bir qərar verməsini, bir çoxlarının hətta "dilənçilik" adlandırdığı yoxsul, ağır, məhrumiyyətlərlə dolu sadə həyatı seçmələrini cəmiyyət birmənalı qarşılamır. Onlara ağız büzənlər, inanmayanlar da var, bu qəfil dönüşü böyük fədakarlıq, möminliyin zirvəsi, Tanrıya, Müqəddəs Məryəmə, İsa Məsihə olan böyük sevginin bariz nümunəsi sayanlar da. Amma istər Nemanya (sonradan rahib Simeon), istərsə də əvvəllər Bizans imperatorunun qızı, sonra isə hökmdar xanımı olmuş Anna (sonradan rahibə Anastasiya) ikinci fikri doğruldaraq, seçdikləri ağır, ancaq şərəfli missiyanın öhdəsindən ləyaqətlə gəlirlər.

Daim kəhər atların qoşulduğu dəbdəbəli karetalarda gəzən hökmdar və arvadı öz yeni məskənlərinə piyada getməyə qərar verir, bütün təkliflərdən imtina edərək, çətin və təhlükəli yolu piyada qət edirlər. Onlar İsa Məsihin çarmıxa gedərkən daha əzablı yol keçdiyini əsas gətirərək, bunu Tanrı yolunda böyük sınaq və şərəf hesab edirlər. Müəllif bu ağrılı-acılı, şərəfli yolda Uca Tanrının da onlara kömək olduğunu konkret hadisələr əsasında və bədii boyalarla təsvir edir.

Varlı və titullu insanlar olan Nemanya və Annanın rahibliyi seçməsi təkcə onların sosial-iqtisadi durumunun kəskin dəyişməsində özünü göstərmir. Pərqu yorğan-döşəyin quru taxtla, divarları və tavanı qızıl suyu ilə işlənmiş geniş, işıqlı saray otaqlarının soyuq, darısqal, qaranlıq monastır hücrələri ilə, qızıl və gümüşdən hazıralanan nəfis qab-qaşığın, çəngəl-bıçağın qaba taxta mətbəx avadanlıqları ilə əvəz olunması



məsələnin yalnız maddi tərəfidir. Hökmdar və arvadının yaşlı olmalarına baxmayaraq, könüllü olaraq fiziki işlərə qoşulmaları da başadüşüləndir. Çünki hər ikisi sarayda yaşayanda da təvazökar olmuş, dəbdəbəyə xüsusi meyil göstərməmiş, çətinlikdən və fiziki işlərdən qorxmamışdılar. Lakin əsas məsələ ruh aləmi ilə bağlı olan mənəvi-psixoloji dəyişikliklərə hazır olmaq, onları həzm etməkdir. Onlar bütün ömürləri boyu daşıdıqları adlardan, ədalardan, vərdişlərdən, meyarlardan əl çəkməlidirlər; yarım əsrə yaxın evli olan və bir-birini çox sevən insanlar rahiblikdə bacı-qardaşdır, on yeddi yaşında Müqəddəs Dağa getmiş, orada rahibliyi qəbul etmiş və artıq iyirmi yeddi yaşında olan kiçik oğulları Rastko (rahib Savva) rahib Simeonun və rahibə Anastasiyanın qardaşıdır, hətta rütbəcə böyük olduğu üçün Savva atadır. Bu insanlar öz yeni statuslarında illər boyu onlara biət və təzim etmiş, qarşılarında diz çökərək əllərini öpmüş insanlara bacı və qardaş münasibəti göstərməli, yeri gələndə onların qabağında diz çökməli, əllərini öpməli, hər işdə onlarla bərabər olmalıdırlar. Müəllif onların bu məsələlərlə bağlı da heç bir kompleks yaşamadığını inandırıcı səhnələrlə təsvir etmiş, Tanrı sevgisi, səmimi iman önündə heç bir kompleksin, heç bir çətinliyin aşılmaz olmadığı qənaətinə varmışdır.

Amma diqqətli oxucu Nemanya və Annanın bütün bu fədakarlıqlarında, iradəli davranışlarında dünyəvi maraqların olduğunu da sezə bilir. Ancaq bu maraqlar dünyəvi olsa da, cılız, xırda, şəxsi mənafeyə, ehtiraslara deyil, onların mənsub olduğu serb xalqının əmin-amanlığına və rifahına, serb dövlətçiliyinin möhkəmlənməsinə, Serbiyanın beynəlxalq mövqeyinin güclənməsinə hesablanıb.

Orta əsrlər dövlətçilik gələnəyi teokratiyaya əsaslanırdı və güclü vahid dini əsaslar olmadan, oturuşmuş, sabit, əzəmətli dövlət qurmaq, onu qorumaq, inkişaf etdirmək, demək olar ki, mümkünsüz idi. Stefan Nemanya jupan Zavidanın ailəsində dünyaya göz açmışdı. Zavida pravoslav idi, ancaq o zaman Duklyada pravoslav ruhaniləri olmadığından, Nemanyanı katolik keşişi xaç suyuna salmışdı.

1950-ci ildə bizanslılar yenidən Raşkanı əsarət altına aldılar və bundan bir müddət sonra Nemanya Rasdakı Pyotr kilsəsində pravoslavlığı qəbul etdi. Tədqiqatçı Jelko Fayfriçin fikrincə, Nemanya pravoslavlığı qəbul etməkdə siyasi məqsədlər güdürdü, çünki katolik olduğundan Raşkada böyük məqama yüksələ bilmirdi. 1150-ci illərdə atası Nemanyaya ölkənin şərq sərhədlərindəki torpaqları idarə etməyi tapşırmış, bundan bir qədər öncə isə o, jupanlardan birinin qızı olan Anna ilə evlənmişdi. 1160-cı ildə Nemanya və qardaşları Raşkada mühüm mövqeləri tuturdular. 1162-ci ildə Bizans imperatoru Manuil I Komnin Nemanyanı söhbətə dəvət edir və ona təntənəli qəbul təşkil edir. Əvvəllər Bizansa aid Leskovas ətrafı torpaqları ona bağışlayır. Lakin imperatorun bu hərəkətinin səbəblərini tarixçilər tam izah edə bilmirlər. Bəlkə də, Nemanya və qardaşları Bizansın böyük jupan taxtında əyləşdirdiyi adamları dəstəklədikləri üçün sadiqliyə görə mükafatlandırılmışdılar. Ancaq bu jest Nemanyanın böyük qardaşlarını kəskin şəkildə ona qarşı qoydu. Qardaşları Nemanyanı formal olaraq onların rəyini nəzərə almadan kilsəni hər şeyin fövqünə qaldırmaqda ittiham edirdilər. Bunlar müəyyən boşluqlarla müşayiət olunan rəsmi tarixi faktlardır.

Lakin yazıçı təxəyyülü məsələyə daha məntiqli çözüm tapır. Əsərdə Nemanyanın evləndiyi qadın Anna Bizans imperatorunun qızıdır. Nemanyanın pravoslavlığı qəbul



etməsi, imperator tərəfindən yüksək səviyyədə qəbul olunması, ona yeni torpaqlar bağışlanması, qardaşlarını yolundan götürmək və böyük jupan olmaq üçün dəstək alması da dolayısı ilə həmin qohumluq əlaqəsi ilə izah olunur. Tarixi mənbələrdəki boşluqlardan məharətlə faydalanan Draqan Damyanoviç həm müəyyən tarixi-siyasi mübahisələrə özünəməxsus bədii nöqtə qoymuş, həm də maraqlı sevgi hekayəsi ilə böyük siyasi proseslərə eyham vurmuşdur.

Nemanya və Anna bir-birini çox sevən, bir-birinə sadiq ər-arvaddırlar, onların maraqlı tanışlıq və romantik evlənmə tarixçələri vardır. Əsərdə Nemanyanın pravoslavlığı Anna ilə evləndikdən sonra qəbul etməsi müəyyən bədii vasitələrlə hiss etdirilsə də, bu haqda açıq mətnlə yazılmır. Eyni zamanda, Anna imperator qızı, milliyyətcə yunan olsa da, ərinə və övladlarına münasibətdə heç vaxt bunu hiss etdirmir. O həm həyat yoldaşı, həm ana, həm də birinci xanım olaraq daim Serbiya və onun maraqları, serb xalqı üçün çalışır, serbcə danışır, heç vaxt Serbiya ərazisini tərk etmir və orada da müqəddəsləşərək dünyasını dəyişir. Sonradan rahibə Anastasiya, iqumenya Anastasiya və Müqəddəs Anastasiya olmuş Annaya görə pravoslav dini Tanrıya qovuşmaq üçün yeganə düzgün yoldur. O buna ürəkdən inanır və serb xalqının, Serbiya dövlətinin, övladlarının xoşbəxtliyini, rifahını, gələcəyini məhz pravoslavlıqda görür. Bəziləri, xüsusilə də böyük oğlu Vukan (Nemanya bir neçə vilayətin idarəsini ona tapşırsa da, böyük jupanlığı Stefana verdiyindən, Vukan valideynləri və qardaşları ilə düşmənçilik edir, Roma və katolik məzhəbi ilə yaxınlıq arayırdı) onu hər şeyi idarə edən gizli əl saysa da, əsərdə Anastasiyanın hər hansı siyasi məsələlərə qarışması, Bizans və oradakı qohumları ilə hər hansı əlaqələrdə olmasıyla bağlı heç bir detal və eyham yoxdur. O, əksinə Nemanyadan sonra böyük

jupan olmuş ortancıl oğlunun arvadı Yevdokiyanı (o da yunan qızıdır) siyasi məsələlərə qarışdığına görə qınayır.

Əsərdə Nemanya və Anastasiyanın bütün dünyəvi və ilahi sevgisi, bütün dünyəvi və dini fəaliyyəti, ibadətləri, duaları, çəkdikləri məhrumiyyətlər və sınaqlar hamısı Tanrı və Serbiya üçündür. Mətnin gözlə görünən, oxunan qismi əsas etibarilə Tanrı sevgisini, mərhəmətini, Səmavi Səltənət, əbədi həyat inancını aşılasa da, alt qatında Serbiyanın siyasi, iqtisadi, hətta geosiyasi maraqları, inkişaf strategiyası dayanır. Ahıl yaşlarında hakimiyyəti övladları arasında bölüşdürüb, tərki-dünya həyatı seçən valideynlər özlərini Tanrıya həsr etməklə bərabər, həm də Serbiyanın gələcəyinin yol xəritəsini cızırlar. Doğrudur, narazılıqlar, ziddiyyətlər, hakimiyyət çəkişməsi, ixtilaflar, münaqişələr, xəyanətlər var, ancaq sonda yenə Serbiya qalib gələcək və bu yolda Tanrı, Məryəm Ana özü onlara kömək olacaq.

Məlum olduğu kimi, tarixi şəxsiyyətlər olan Simeon ata (Nemanya), Anastasiya ana (Anna) və Savva ata (Rastko) hər üçü müqəddəsləşiblər və bu məqama yetişmək üçün sağlıqlarında hər üçü ciddi sınaqlardan keçiblər. Lakin əsərdə Müqəddəs Anastasiyanın möcüzələrinə və peyğəmbərliyinə daha geniş yer verilir, Müqəddəs Məryəmin onunla ilahi, möcüzəvi rabitəyə girməsiylə müşayiət olunan meditativ səhnələr təsvir olunur. O, İsa Məsih kimi xəstələrə şəfa verir, insanları dardan qurtarır, onlara iman, ilahi sevgi aşılayır. Onun şəxsiyyəti, möminliyi, imanlı, dürüst fəaliyyəti, səmimiliyi, fədakarlığı bir çox insanları Tanrı yoluna gətirir, insanlar yalandan, tamahdan, xurafatdan uzaqlaşıb Tanrı evinə üz tutur, içdən gələn səmimi ibadətlər, dualar edir, Tanrının, İsa Məsihin, Məryəm Ananın onları eşidəcəyinə inanırlar.



İlk baxışda sadə təsir bağışlayan, bəzən hətta bəsit görünən roman mətninin alt qatlarında diqqətli və həssas oxucular üçün olduqca vacib məqamlar gizlənib. Əsər Azərbaycan oxucusu üçün də maraqlı, ibrətamiz səhnələr, mənzərələr, ideyalar və mesajlarla zəngindir.

Oxucunun yaddaşına yazılmış əsərlər olur. "Müqəddəs Anastasiyanın möcüzələri və peyğəmbərliyi" belə əsərlərdəndir.

**Akademik**
**Kamal Abdulla**